# KİTABİ – DƏDƏ QORQUD ABİDƏSİNDƏ ƏXLAQ TƏRBİYƏSİ VƏ ONUN MOTİVLƏRİ

*(Əvvəli ötən sayımızda)*

Burada kişinin «halalı» müqəddəslik bildirir. Bu «halal»a heç kəs toxuna bilməz, heç kəs ortaq çıxa bilməz və ailə məsələlərində heç kəs müdaxilə edə bilməz. KDQ-də "halal" kişinin namus simvolu kimi hesab edilir. Müasir dövrdə də bir çox kişilər həyat yoldaşına «arvad» yox, «halal» deyirlər. Mənim halalim, Əhmədin halalı və s.

Lakin ər öldükdə qadının «halallıq» ləyaqəti itir. Qadın artıq sərbəstdir. O, ərə də gedə bilər, dul da olduğuna görə yenidən ərə getmək məqbul sayılırdı.

Mənbələrin birində deyilir: «Oğuz ailəsində tək övladlılıq normadır. Oğuz ailəsinin abır, həya, ismət keyfiyyətləri çox göstəricilərlə yanaşı bir də bu norma ilə şərtlənir. Bu xüsusiyyət övlad-valideyn anlaşmasında munislik yaradır, ər-arvad münasibətlərində sevgi bölünməzliyini təmin edir, ailəni qısqanclıq virusundan azad edir. Ümumiyyətlə, Oğuz ailəsində ora-bura baxmaq, harama meyl, şorgözlük emosiyaları yoxdur. Yəqin ki, bu davranışda ailənin tək arvadlılıq əxlaqının xüsusi akkumlyativ rolu var. Oğuz ailəsinin namus fenomeni də bu genetik faktorla güclüdür. Övlad tərbiyəsindəki uğur da bununla bağlıdır, qadının ərinə fövqəladə sədaqəti də bu saflıqdan irəli gəlir» (62, Ailə, s. 21).

**3.** Oğuz elində əxlaq tərbiyəsinin ən önəmli ünsürlərindən biri ədəb-ərkan və ictimiyyət qaydalarıdır. Bu ədəb-ərkan qaydalarını Oğuz bəyləri həyatlarının yaşama prosesində göstərdikləri fəaliyyətləri ilə gənclərə aşılayırdılar. O dövrdə bugünkü məktəblər yox idi. Bu ədəb-ərkan qaydaları ən çox Oğuz İttifaqının divanlarında, müxtəlif məzmunlu toplanışlarda tərənnüm edilirdi.

Məsələn, dastanın III boyunda oxuyuruq: «Bayındır xanın qarşısında oğlı Qarbudaq bay tayanıb turmuşdı. Sağ yanında Qazan oğlu Uruz turmış idi. Sol yanında Qazlıq qoca oğlı bəg Yegnək turmışdı» (D – 67). IV boyda deyilir ki, Ulaş oğlı Salur Qazanın «Oğıl Uruz qarşısında yay söykənib turardı. Sağ yanında qardaşı Qaragünə otırmışdı. Sol yanında tayısı Uruz oturmuşdu» (D – 123). Belə məclislərdə gənclər böyüklərinin fəaliyyətlərini, onların davranışlarını təlgin edib ədəb-ərkan qaydaları öyrənirdilər. Gənclər məclislərə gələn bəylərin bir-biri ilə görüşmələrini, vəzifəli şəxslərlə rəftarlarını götür-qoy edib, onlara yiyələnirdilər.

Məsələn, əlini köksünə qoymaq. KDQ-nin dilində türk törəsindən çox mühüm olan etiketi ifadə edir ki, bu da salamdır: «Dəli ozan gəldi, baş endirdi, bağır basdı, salam verdi»; (D – 109). «Bərə çoban, ... bərü gəlgil! Baş endirib bağır başgil!» (D – 40). Salam türk cəmiyyətində bir-birinə ehtiram göstərməyi və topluluğun bütövlüyü və birliyini təmin eləyirdi.

Bağır basıb əlini köksünə qoymaqla salam vermək bü gün də Anadoluda geniş yayılmışdır.

Ozanlar da bağır basıb salam verir, xanların qarşısında diz çöküb əyilmirdilər.

KDQ-də əxlaq tərbiyəsinin tərkibindən olan ictimai borc sadiqlik və etibar gənclərin tərbiyəsində başlıca rollardandır. Məsələn, öz nişanlısının toyunda iştirak etməsi dünya eposunun səyyar süjeti kimi Oğuz qəhrəmanı Beyrəyi də öz içinə ehtiva edir» (8, s. 55). Beyrək ictimai borc anlayışını şəxsi mənafedən üstün tutur. O, öldürüləcəyini bilə-bilə oğuz dövlətçiliyinə və onun sərgərdəsi, bütün Oğuz elinin bəylər bəyi Qazana sadiq qalır. Baxmayaraq, Taş Oğuz bəyi idi və halalı da Taş Oğuzdan idi. Ancaq Taş Oğuzun başçısı Atağızlı Aruz bəyin təklifini – Qazana asi olmaq təklifini rədd edir.

Nəhayət, Beyrək Oğuz dövlətçiliyi və dosta sadiqlik yolunda həlak oldu. Bu Oğuzun əxlaq tərbiyəsinin önəmli nəticəsi idi.

**4.** «Kitabi-Dədə Qorqud» abidəsində əxlaq tərbiyəsini gənclərin şərəf, ləyaqət, dostluq və yoldaşlıq, inadkarlıq, qətiyyətlik və cəsarətlik bacarıqları il əvə o cümlədən, ictimaiyyət tərəfindən qəbul edilmiş yasaqlar ilə müşayiət olunurdu. Bu tərbiyə keyfiyyəti Oğuz gənclərinə xas olan sifət idi. Dastanda deyilir ki, düşmənlər namərdliklə Salur Qazanı ələ keçirib bir quyuya salırlar. Onlar Qazanın qarşısında belə bir şərt qoyurlar: qopuz edib bizi tərifləsin, oğuzları isə həcv etsən, səni azad edərik! Beləliklə, Qazan bəy iki yol arasında (həyat və ölüm) qalır. Birincisi, həyat, yaşamaq şərəfsizliklə, Oğuz ləyaqətini tapdalamaqla əldə olunur. İkincisi – ölüm isə şərəf və ləyaqətin hər şeydən uca tutulduğuna görə verilir. Ölüm qorxusu olsa da şərəf və ləyaqət yolu seçilir. Qazan bəyin davranış və rəftarını motivləşdirən amillər ümumetnik əhəmiyyət daşıyır, müqddəs və ucadır. O bunlara müvafiq qərarını verir, ikinci yolu seçir.

Oğuz gənclərinin əxlaq tərbiyəsinin gedişində dostluq və yoldaşlıq daha uca zirvələrdə dayanır. Oğuz ellərində dostluq və yoldaşlıq istər fərdi şəxslər, istər qruplar, istərsə də tayfadaxili münasibət və ünsiyyətdə yüksək ehtiramlarla ifadə olunur.

Məsələn, Daş Oğuz İç Oğuza asi çıxanda Daş Oğuz bəyləri Qazanı sındırmaq üçün yuxarıda deyildiyi kimi, Qazanın dostu Beyrəkdən istifadə etmək istəyirlər. O bunların – Aruzun və digər Daş Oğuz bəylərinin təklifini rədd edir. Belə olduqda Aruz Beyrəyi öldürür. Qazan isə dostu Beyrəyə sadiq çıxaraq dayısı olduğuna baxmayaraq, Beyrəyin Qanı əvəzinə dayısı Aruzu öldürür. Göründüyü kimi Oğuz elində igid, mərd dost namərd qohumluqdan çox yüksək tutulur. Oğuzların zəngin, rəngarəng mənəvi-psixoloji xüsusiyyətləri ümumi xarakter əlamətlərində daha parlaq şəkildə təzahür edir. Oğuzlar cəsur, igid, qorxmaz, çalışqan, qarşıya qoyduqları məqsədə çatmaqda inadkar və qətiyyətlidir. Oğuzlarda əsl adı bir şəxs doğularkən deyil, həyatda bir hünər, igidlik göstərdikdən sonra alır. Bu adı ona Dədə Qorqud verir.

Oğuzların əxlaq xarakterində diqqəti çəkən əlamətlərdən biri də cəsurluq, dözümlülük, məğrurluq, təvazökarlıq, namusluluqdur, ölümündən belə qorxmamaqdır. Bunu Dədə Qorqud ilə Dəli Qacar qarşılaşmasında ibrətli-mənalı şəkildə görürük. Dəli Qacar bacısına elçiliyə gələnlərin başına min cür oyun açır. Dədə Qorqud bunu bilsə də Dəli Qacardan bacısını Bamsı Beyrəyə istəməyə gedir. Burada xarakterin ehtiyyatlı tərpənmək, təhlükəyə qarşıhazır olmaq kimi təzahürlərinə rast gəlirik.

Dözümlülük, məğrurluq, təvazökarlıq və namusluluq KDQ qəhrəmanlarının səciyyəvi etnik-psixoloji əlamətləridir. Bəkil ov zamanı ayağını sındırır. O, günlərlə ağrıya dözərək bunu heç kimə demir, hətta arvadından da gizli saxlayır. Bunun səbəbi Vətənin keşiyində sayıq olmaq idi. Bəkil düşünürdü ki, yaralı olduğu üçün Vətənin keşiyinə getməyə icazə verməzlər. Burada dözümlülüklə bərabər bir məğrurluq da vardır.

Yaxud Salur Qazan evini, var-yoxunu çapıb talayan düşmənlə özü hesablaşmaq istəyir. Qaraca çobanın köməyindən istifadə etməyi qürurna sığışdrmır. Buna görə də çobanı bir ağaca sarıyıb təkbaşına düşmənin üzərinə gedir.

Namus Oğuz ellərində müqəddəs mənəvi sərvətdir ki, bu barədə yuxarıda geniş danışılmışdır.

Beləliklə, Oğuzun ləyaqəti, namusu qorunur, oğuzların istər kişisinin, istərsə də qadınının namus, şərəf yolunda ölümə hazır olduqları məlum olur.

Namus məsələsində KDQ Oğuz etnik xarakterinin, psixologiyasının müxtəlif çalarlarını, incəlikəlrini aşkar edən situasiyalar ilə zəngindir. Belə ki, Oğuz gənci «gərdəyə girmək» hadisəsində də özünəməxsus şəkildə təzahür edir. Məsələn, Beyrəyə toy edib Banıçiçəyi gəlin gətirirlər. Ancaq Beyrək Bayburd qalasında dustaq olan otuz doqquz yoldaşını qurtarmayınca gərdəyə girmir. Dastanda deyilir: «Qazan bəg aydır: «Gəl muradına yetiş!». («Beyrək aydır: «Yoldaşlarımı çıxarmayınca, hasarı almayıncə murada irmərəm!» - dedi» (D – 119).

Nişanlısına toy edib gəlin gətürdikdən sonra Səgrək də gərdəyə gəlmir. Ona görə ki, qardaşı yad bir ölkəyə gedib gəlməmişdir. Səgrək qardaşının dirisini və ya ölüsünü görməyincə gərdəyə düşməyəcəyinə and içir. Dastanda göstərilir: «Oğlanı gərdəyə qoydılar. Qızla ikisi bir döşəgə çıqdılar. Oğlan qılıncın çıqardı. Qızla kəndü arasına bıraqdı. Qız aydır: «Qılıcın gedir, yigi, murad ver, murad al, sarılalım!» - dedi. Oğlan aydır: «Mərə qavat qızı, mən qılıcıma toğranayım, oxuma sancılayım! Oğlım toğmasın, toğarsa, on yaşına varmasın, ağamın yuzin görməyincə, ölmiş isə qanın almayınca bu gərdəgə girərsəm!» - dedi» (kts – 112, D- 260).

Dastanın VI boyunda göstərilir ki, Qanlı qoca oğlu Qanturalı Trabzon təkürünün üç canvərinə – Buğa, Aslan, dəvə (buğra) qalib gəlir. Təkür toy edir; «Qırq yerdə otaq dikdirdi. Qırq yerdə qızıl ala gərdək dikdirdi. Qanturalıya qızı gətürüb, gərdəgə qoydılar. ...Oğuz yigidinin öygəni qapardı, qılıcın çıqardı, yeri çaldı – kərtdi. Ayıtdı kim, yer kibi kərtiləyin, torpaq kibi sovrılayın, qılıcıma toğranayın, oxıma sancılayın, oğlum toğmasun, toğarsa, on günə varmasun, bəg babamın, qadın anamın yüzin görmədin bu gərdəyə girərsəm!» - dedi» (kts – 90, D – 189, 190).

Buradan belə bir fikir yaranır ki, Oğuz elində namus, ismət gerçəkliyi mövcud olmuşdur. Orada intim əlaqənin nəticəsi valideynlərə, yaxın və uzaq qohumlara, bütün Oğuz elinə məlum olmalı idi. Dan sazı çalınmalı idi. Bu Oğuz elinin ən əxlaqi ünsürlərindən biri idi.

Oğuz ellərində əxlaq tərbiyəsinin aparıcı qüvvələrindən biri də yasaqlardır. Yasaqları – Cəmiyyətin həyatında zaman-zaman əldə edilmiş qadağalardır. KDQ-də sistem şəklində təzahür edir. qorqudşünas alim Kamal Abdulla qeyd edir ki, Yasaqlar iki qrupa ayrılırlar: hüquqi yasaqlar; etik əxlaqi yasaqlar. Həm hüquqi, həm etnik-əxlaqi yasaqlar bütövlükdə cəmiyyəti içəridən möhkəmləndirmək məqsədini güdür və əslində mənəvi və struktur vasitə kimi cəmiyyətin tamlığını, daxili bütövlüyünü, mənəvi yekrəngliyini qoruyub saxlamağa xidmət edirlər. Hüquqi yasaqlar bütövlükdə cəmiyyətin həyatını tənzim edirlər və onları Epos daxilində bu şəkildə qruplaşdırmaq mümkündür: 1). Qan qohumunun qarşısın alan yasaqlar; 2). Qanun, qaydaya, nizama, sahmana (Kosmotika) qarşı mübarizəyə imkan verməyən yasaqlar; 3). Cəmiyyət üzvünün öldürülməsinin yasağı; 4). Tayfadaxili və tayfaxarici (İç Oğuzla Daş Oğuz) nifaq yasağı; 5). Şəxsi mənafeyini cəmiyyət mənafeyindən üstün tutmağın yasağı; 6). Mərkəzi hakimiyyətə üsyanın yasağı; 7). «Təbiət – mədəniyyət» qarşılığında təbiətə hər nə şəkildə olursa-olsun qayıdışın yasağı.

KDQ-dəki etik-əxlaqi yasaqlar cəmiyyətdaxili əhəmiyyətə malik olub cəmiyyət üzvlərinin bir-birinə şəxsi münasibətlərini nizamlamağa xidmət göstərir. Bunlara daxildir: 1). Ataya (böyüyə) itaət etəməməyin yasağı; 2). Yalan söz danışmağın yasağı; 3). Nişanlı qızın oğlana toydan əvvəl görünməməsinin yasağı; 4). Tək qərar qəbul etməyin yasağı.

Yasağı pozmaq KDQ təsvir edildiyi kimi cəzalandırma ilə nəticələnir. Ölümdən tutmuş tənbehə qədər böyük bir spektri özündə saxlayan cəza yasağın əsas qoruyucusudur (Bax: 37, səh. 354-355).

**5.** «Kitabi-Dədə Qorqud» dastanında gənclərin əxlaq tərbiyəsinin hərbi hissələrindən biri olan təvazökarlıq və humanistlik. Oğuz igidləri etdikləri şücayət, qəhrəmanlıqları ilə özlərini ictimaiyyətə və vəzifəli şəxslərə bildirmək istəmirdilər. Məsələn, Bayındır xana basqın edən kafiri Şir Şəmsəddin məhv edir: O bu qocalığını heç kəsə bildirmədi və Bayındır xanın bu işdən xəbər olmadı. Ancaq onun qocalığını görənlər onun qəhrəmanlığını söylədilər. Dastanda deyilir: «Dəstarsızca Bayındır xanın yağısını basan, altımış bin kafirə qan qusduran, ağ-boz atın yalısı üzərində qar turduran. Qəflət qoca oğlı Şir Şəmsəddin çapar etdi» (D – 60, 61).

KDQ-də qazilərin həyatı kifayət qədər obyektiv təsvir edilir – onlar heç də qalib gəlmirlər, bəzən məğlub olur, əsir düşür, şəhid verirlər. Bununla belə, dövr, zaman, ümumiyyətlə qazilərin xeyrinə işləyir, KDQ qazi həyatı, qazi şəxsiyyəti, qazi xarakteri barədə mükəmməl təsəvvür yaradır. Məsələn, Qazan xan uzaq-uzaq səfərlərə gedib, sıldırım qayalar üzərində tikilmiş kafir qalalarını almış, kilsələri yıxıb, yerinə məsçid yapdırmış, dinsizi dinə gətirmişdir. Ona müqavimət göstərən kafirlər amansızcasına cəzalandırılmış, qızını-gəlinini əsir almış, kafir ellərində at oynatmışdır. Düşmənin hədiyyəsinə, ona təklif edilən qadına, pula-qızıla, rüşvətə aldanmamış, kafiri adam saymamışdır... Və bütün bunlarla yanaşı, heç zaman özünü öyməmiş, bunu elədim, onu elədim – deməmişdir. Kafirlərə əsir düşmüş Oğuz igidlərinə – qazilərə cəza versələr də, onları, demək olar ki, öldürmürdülər.

Adətən, igidi ona görə əsir saxlayırlar ki, öz yerinə (Oğuza) qayıdıb yeni qüvvə ilə qəzaya, aqına gəlməsin. (Bax: Dədə Qorqud Kitabı. Ensiklopedik Lüğət, B.204, səh.216).

Oğuz igidləri müxtəlif hərəkətlərl özlərinin kimliyini, sücaətlərini, fərdi xüsusiyyətlərini bildirmək istəmirdilər. Əksər hallarda Oğuz gəncləri - oğlan, qız və gəlinləri niqabla gəzirdildər.

Niqab – keçmişdə döyüşçülərin tanınmaq və qorunmaq üçün taxdıqları üz zirehi. Bu zireh sonralardan Oğuz gəncləri üz örtüyü kimi müxtəlif materiallardan tikərək istifadə edirdilər. Bu baxımdan Oğuzda dörd yigit niqabla gəzərdi. Dastanda deyilir: «Qanturalı cəmal və kəmal iyəsi yigit idi. Oğuzda dört yigit niqabla gəzirdi: Biri Qanturalı, bir Qaraçəkür və oğlı Qırqınuq və Boz ayğırlı Beyrək (D – 180).

Bamsı Beyrək hekayəsinin Anadolu rəvayətində söylənilir ki, Ağqovaq qızının üzü niqabla örtülüymüş. Yoxsa üzünün gözəlliyini görənlərin aqılları başlarından gedərmiş.

*(Davamı var)*



***Yusif QAZIYEV,***
***Pedaqogika üzrə elmlər doktoru, Əməkdar müəllim***